AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT TURİZM AGENTLİYİ
AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

DOKTORANTURA VƏ DİSSERTANTURA SƏVİYYƏSİ ÜZRƏ

TƏHSİL PROQRAMI

BAKI-2023

Tərtib edənlər: **F.ü.e.d., prof. Bağırov Zaur Siyavuş oğlu**
ATMU-nun Tədris işləri üzrə prorektoru

F.r.e.n., dos. Nəsirli Nəsirullah Beytulla oğlu
ATMU-nun Elm və İnnovasiya şöbəsinin müdiri

Eldarova Həcər Elxan qızı
ATMU-nun Tədris-metodiki şöbəsinin müdiri

Qasımlı Hacı Hacıbala oğlu
ATMU-nun Elm və İnnovasiya şöbəsinin mütəxəssisi

Təsdiq edirəm

Azərbaycan Turizm və Menecment Universitetinin

rektoru _____ İlham Mədətov

"03" Mart 2023-cü il

DOKTORANTURA VƏ DİSSERTANTURA SƏVİYYƏSİ ÜZRƏ TƏHSİL PROQRAMI

1. Ümumi müddəalar

1.1. Doktorantura və dissertantura səviyyəsi üzrə təhsil proqramı (bundan sonra ixtisaslar üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, "Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı" na və Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Doktoranturaların yaradılması və doktoranturaya qəbul Qaydaları" haqqında qərarına uyğun hazırlanmışdır.

1.2. Azərbaycan Respublikasının Təhsil haqqında Qanununda qeyd edilir ki, doktorantura - ali təhsilin ən yüksək səviyyəsi, doktorluq elmi dərəcəsinin alınmasını həyata keçirən yüksək səviyyəli elmi kadr hazırlığı formasıdır.

1.3. Doktorantura və dissertantura üzrə təhsil proqramının məqəsdləri aşağıdakılardır:

-Yüksək ixtisaslı elmi və elmi-pedaqoji peşəkar mütəxəssislərin hazırlanması;

-Elmi tədqiqat metodlarının və üsullarının daha dərindən öyrənilməsi;

-Tədqiqat mövzularının araşdırılması və ümumi təhlillərin aparılması;

-Elmi tədqiqat sahəsinə və ixtisasa aid sahələr üzrə müasir tələblər səviyyəsində ixtisas fənlərinin tədrisinin mənimsənilməsi;

1.4. Tədqiqatçının 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saatdır. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 10%-dən çox olmamaqla saatları aşağıdakı kimi təyin edilir:

əyani - 1 kredit = 30 saat = 3 saat auditoriyadaxili + 27 saat auditoriyadan kənar;

qiyabi/dissertantura - 1 kredit = 30 saat = 1 saat auditoriyadaxili + 29 saat auditoriyadan kənar.

1.5. Təhsil proqramı doktorantura və dissertantura səviyyəsi üzrə fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə qəbul həyata keçirilən bütün ali təhsil müəssisələri istifadə edə bilər.

2. Məzmun kompetensiyaları

2.1. Təhsil proqramının sonunda doktorant və dissertant tələbəsi aşağıdakı **ümumi** kompetensiyalara yiyələnməlidir:

- Doktorant öz elmi ixtisası, dissertasiya tədqiqatı sahəsində mütəxəssis olmalı, materialı mənimsəməli və hər zaman öz peşə sahəsindəki son yeniliklərdən xəbərdar olmalıdır;

- Doktorantın elmi fəaliyyət mədəniyyəti. Peşəkar fəaliyyət şəraiti hər hansı bir peşə nümayəndəsinin şəxsi maraqlarına böyük təsir göstərir. Universitetdə doktorantın əməyinin özəlliyi ondan ibarətdir ki, o, daim elmi işlə məşğul olmalıdır ki, onun uğuru elmi dərəcə, ad, ciddi nəşrlər, tədqiqat nəticələrinin həyata keçirilməsindən ibarətdir.

Bu yaradıcılıq prosesində doktorant təkcə şəxsi maraqları deyil, həm də kafedranın maraqlarını rəhbər tutmalıdır;

- Doktorantın elmi fəaliyyət sahəsi tədqiqat bacarıqlarını tələb edir: tədqiqat metodları, məlumatların toplanması və emalı, tədqiqatın nəticəsini görmə, tədqiqatın aktuallığını və zəruriliyini müəyyən etmək;

- Tədqiqat fəaliyyətinə elmi tədqiqatların nəticələrindən tədris prosesində istifadə etmək zərurəti də daxildir: tədqiqat nəticələrinin təlimin məzmununa daxil edilməsi, tələbələrin elmi tədqiqatlara cəlb edilməsi, tələbə elmi dərnəklərinin işinin təşkili;

- Doktorantın tədris-metodiki mədəniyyəti. Doktorantın müəllim kimi mədəniyyəti onun pedaqoji texnologiyalara, metodlara, formalara, tədris texnikalarına dair bilikləri, konkret pedaqoji vəzifələri müəyyən etmək, Dövlət Standartları və kurikulumlar əsasında fənn üzrə iş proqramı hazırlamaq, müxtəlif

növ (mühazirələr, seminarlar, laboratoriyalar) təlim məşğələlərini planlaşdırmaq və keçirmək, tələbələrin təhsil fəaliyyətinə rəhbərlik etmək.

2.2. Təhsil proqramının sonunda doktorant və dissertant səviyyəsi məzunu aşağıdakı **peşə** kompetensiyalarına yiyələnməlidir:

- Tədqiqatın mövzusu və elmi ixtisas üzrə yüksək səviyyədə bilik və bacarıqlar; qazanılmış biliklərdən yaradıcı şəkildə istifadə etmək bacarığı yüksək düşünmə qabiliyyəti və geniş dünyagörüşünə malik olmaq;

- Elmi fəaliyyət mədəniyyəti: Elmi tədqiqatlara və innovasiyalara diqqət, məntiqi təfəkkür, elmi tədqiqat metodlarına yiyələnmək, tədqiqat təcrübəsi, elmi nəticələri təqdim etmək bacarığı (məqalələr, monoqrafiyalar, patentlər və s.), elmi tədqiqatların nəticələrindən tədris prosesində istifadə etmək bacarığı;

- Tədris-metodiki mədəniyyət: Pedaqoji texnologiyalar, metodlar, formalar, tədris texnologiyası haqqında biliklər, konkret pedaqoji vəzifələri müəyyən etmək, təlim nəticələrini qabaqcadan görmək, pedaqoji nəticələri qiymətləndirmək bacarığı; kurrikuluma uyğun və öz strategiyasına uyğun olaraq təlim məşğələlərini planlaşdırmaq; təlim texnologiyasını qurmaq üçün müvafiq tədris vasitələrini seçmək və istifadə etmək. Dövlət Təhsil Standartları və kurikulumlar əsasında fənlər üzrə iş proqramları hazırlamaq, fənlərin və proseslərin tədris-metodiki komplekslərinin işlənib hazırlanması bacarıqları, müxtəlif növ təlim formalarının (mühazirələr, seminarlar, laboratoriyalar) planlaşdırılması və keçirilməsi bacarıqları, tələbələrin təhsil fəaliyyətinin idarə edilməsi bacarıqlarına malik olmalıdır.

- İnformasiyanın əldə edilməsi və emalı üçün üsul və vasitələrə yiyələnmək, informasiya texnologiyaları, fərdi kompüterlərin strukturu və arxitekturası, avtomatlaşdırılmış tədris və monitorinq sistemlərinin qurulması prinsipləri üzrə biliklər, kompüterlə işləmək üzrə praktiki bacarıqlar, təhsil prosesində və elmi fəaliyyətdə informasiya texnologiyalarının tətbiqi bacarıqları;

- Təhsil prosesinin metodoloji və psixoloji əsaslarını bilmək; tərbiyəyə təsirin forma və üsulları, təhsilin məqsəd və vəzifələrini müəyyən etmək, təhsilin məqsədlərinin həyata keçirilməsi üçün lazımi şərait yaratmaq bacarığı, tərbiyə

işində liderləri müəyyən etmək və onların potensialından istifadə etmək bacarığı, təhsil prosesinin planlaşdırılması və həyata keçirilməsi bacarıqları;

- Siyasi mədəniyyət: Ölkədəki siyasi vəziyyəti bilmək, cəmiyyət qarşısında məsuliyyət, başqa insanlardan öyrənmək bacarığı və s.

3.1. Əyani doktorantura təhsil pilləsi üzrə Təhsil Proqramının strukturu

№	Fənnin və tədqiqatın adı	Kredit	Cəmi saat	Auditoriya daxili saat	Auditoriyadan kənar saat	Aktiv/passiv	Semestr Payız 1, Yaz 2
		60	**1800**	**180**	**1620**		
I tədris ili - Ümumi fənlər bloku							
1.	Akademik xarici dil	20	600	60	540	aktiv	Payız 1
2.	Elmin fəlsəfəsi	10	300	30	270	aktiv	Payız 1
3.	Elmi tədqiqat metodları	10	300	30	270	aktiv	Yaz 2
4.	İxtisas yönümlü seçmə fənlər	20	600	60	540	aktiv	Yaz 2
	I tədris ilinin attestasiyası	-	-	-	-	passiv	Yaz 2
II tədris ili – Tədqiqat bloku							
5.	Dissertasiya mövzusuna dair materialların toplanması	-	-	-	-	passiv	Payız 3
6.	Dissertasiya mövzusuna dair məqalələrin hazırlanaraq yerli və xarici jurnallarda dərc edilməsi	-	-	-	-	passiv	Yaz 4

	II tədris ilinin attestasiyası	-	-	-	-	passiv	Yaz 4
	III tədris ili – Yekun Attestasiya bloku						
7.	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq dissertasiyanın hazırlanması	-	-	-	-	passiv	Payız 5
8.	Kafedrada ilkin müzakirənin və yekun müdafiəsinin təşkili	-	-	-	-	passiv	Yaz 6

3.2. Qiyabi doktorantura və dissertantura təhsil pilləsi üzrə Təhsil Proqramının strukturu

№	Fənnin və tədqiqatın adı	Kredit	Cəmi saat	Auditoriya daxili saat	Auditoriyadan kənar saat	Aktiv/passiv	Semestr Payız 1, Yaz 2
		60	**1800**	**60**	**1740**		
	I tədris ili - Ümumi fənlər bloku						
1.	Akademik ingilis dili	20	600	20	580	aktiv	Payız 1
2.	Elmin fəlsəfəsi	10	300	10	290	aktiv	Payız 1
3.	Elmi tədqiqat metodları	10	300	10	290	aktiv	Yaz 2
4.	İxtisas yönümlü seçmə fənlər	20	600	20	580	aktiv	Yaz 2
	I tədris ilinin attestasiyası	-	-	-	-	passiv	Yaz 2
	II və III tədris ili – Tədqiqat bloku						
5.	Dissertasiya mövzusuna dair materialların toplanması	-	-	-	-	passiv	Payız 3 Yaz 4
6.	Dissertasiya mövzusuna dair məqalələrin hazırlanaraq yerli və xarici jurnallarda dərc edilməsi	-	-	-	-	passiv	Payız 5 Yaz 6

II və III tədris ilinin attestasiyası		-	-	-	-	passiv	Yaz 4 Yaz 6
IV tədris ili – Yekun Attestasiya bloku							
7.	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq dissertasiyanın hazırlanması	-	-	-	-	passiv	Payız 7
8.	Kafedrada ilkin müzakirənin və yekun müdafiəsinin təşkili	-	-	-	-	passiv	Yaz 8

4.Tədris və öyrənmə

5.1. Doktorantura və dissertantura üzrə tədris və öyrənmə mühiti elə təşkil edilməlidir ki, xüsusilə əyani təhsil alan tələbələr tədris proqramında nəzərdə tutulan ümumi bilik və bacarıqları mənimsəyə bilsinlər.

5.2. Doktoratura və dissertantura səviyyəsi üzrə tədris aparan professor-müəllim heyəti tədris etdikləri fənlər üzrə proqram və sillabuslarda fənnin əsas mahiyyəti şərh edilməlidir.

5.3. Doktoratura və dissertantura səviyyəsi üzrə tədris olunan fənlər üzrə yekunda imtahanların keçirilərək qiymətləndirilmə aparılmalıdır.

5. Qiymətləndirmə

6.1. Qiymətləndirmə elə təşkil olunmalıdır ki, doktorant və dissertant tələbələrinin gözlənilən təlim nəticələrini əldə etmələri səmərəli şəkildə ölçülə bilsin.

6.2. Qiymətləndirmə üsulları müvafiq sənədlərdə (fənn proqramlarında, sillabusda və s.) təsvir edilməli və universitetin rəsmi internet səhifəsində yerləşdirilməlidir.

6.3. Qiymətləndirmə üsulları innovativ tədris təcrübələri nəzərə alınaraq davamlı şəkildə nəzrdən keçirilməli və təkmilləşdirilməlidir.

6.4. Doktorantura və dissertantura səviyyəsi üzrə təhsil alan tələbələrdə akademik etika mühüm yer tutur. Buna görə də tələbələrə akademik dürüstlüyə riayət etmək, elmi tədqiqatların aparılması metodologiyasını öyrənmək və plagiarizm problemini anlamaq öyrədilir.

6. Doktorantura və dissertantura üzrə tərtib olunan proqramın və hər bir fənnin təlim nəticələri

7.1. Təhsil Proqramının təlim nəticələri, eləcə də hər bir fənnin təlim nəticələrinin müəyyənləşdirilməsi və hər bir fənnin sillabusunun hazırlanması ali təhsil müəssisəsinin akademik heyətin səlahiyyətindədir.

7.2. Təhsil Proqramının cəmiyyətin və əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktiki məzmunu təmin etməsi məqsədilə doktorantura və dissertantura üzrə tədris olunan fənlərin sillabusları müntəzəm şəkildə yenilənməlidir.

7. İnfrastruktur və kadr potensialı

8.1. Doktorantura və dissertantura üzrə ixtisaslarının təhsil proqramına müvafiq hazırlanmış tədris planında nəzərdə tutulan fənlər üzrə dərslərin aparılması, təcrübələrin keçirilməsi və elmi tədqiqat işlərinin yerinə yetirilməsi üçün İKT ilə təchiz olunmuş kabinet və laboratoriyalar, kompüter otaqları ilə təmin olunmuş maddi-texniki bazası olmalıdır.

8.2. Doktorantura və dissertantura təhsil pilləsi üzrə tədris aparan professor-müəllim heyəti elmi dərəcəyə malik olmalıdır.

8.3. Dissertasiya mövzusu üzərində tədqiqat işi aparan doktorant və ya dissertant tələbəsi dissertasiya mövzusuna uyğun təcrübələrə də cəlb edilə bilər. Təcrübələr dövlət müəssisələrində, tədqiqat laboratoriyalarında, özəl şirkətlərdə, muzeylərdə, müxtəlif profilli kitabxanalarda və s.) təşkil oluna bilər.

8. Məşğulluq və ömürboyu təhsil

9.1. Doktorantura və dissertantura təhsil pilləsi üzrə müvafiq ixtisasları bitirən, müdafiə edərək doktorluq dərəcəsi alan məzunlar mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn ali təhsil müəssisələrində, müvafiq struktur və bölmələrdə yüksək vəzifələrdə doktor kimi fəaliyyət göstərə bilərlər.

9.2. Doktorantura və dissertantura təhsil pilləsi üzrə fəlsəfə doktoru proqramını bitirən, diplom alan məzunlar gələcəkdə elmlər doktorluğu proqramı üzrə də təhsilini davam etdirə bilərlər.

9.3. Doktorantura və dissertantura təhsil pilləsində əldə olunan bilik, bacarıq və yanaşmalar tələbələrin müstəqil şəkildə ömürboyu təhsilini davam etdirmələrində mühüm rol oynayır.

Əlavə-1

Təhsil Proqramı və fənlər üzrə təlim nəticələri

Ali təhsil müəssisəsi Təhsil Proqramı və hər fənn üzrə gözlənilən nəticələrini müəyyən etməlidir. Aşağıdakı cədvəllərdə ən azı 6 təlim nəticəsi sadalanmalıdır (Təhsil proqramı və hər fənn üzrə ayrılıqda)

Təhsil Proqramının təlim nəticələri (PTN)
PTN 1. Peşəkar və şəxsi etik davranışın əsas prinsiplərinə uyğun hərəkət etmək üçün ictimai mənafe dəyərini təşviq edən müvafiq etik davranış qaydalarını, qanunları və tənzimləmə mexanizmini bilmək və onların həyata keçirilməsini təmin etmək.
PTN 2. Strateji məqsədlərə nail olmaq üçün təhlil aparmaq bacarığına malik olmalı və effektiv dəyişikliklərin səmərəli idarə edilməsinə və iş prosesinin yaxşılaşdırılmasına aparan yenilikçi dəyərə malik olmalıdır.
PTN 3. Tədqiqat mövzusuna uyğun elmi araşdırmaların aparılmasında müqayisəli təhlillər etməlidir.
PTN 4. Tədqiqat mövzusuna aid elmi məqalələrin yazılması və hazırlanması metodikasını bilməlidir.
PTN 5. Doktorantura və dissertantura təhsil pilləsində təhsil alan tələbə təhsil aldığı müddətdə hansı işləri görməli olduğunu mütləq bilməlidir.
PTN 6. Tədqiqatçı dissertasiyanın tərtibi zamanı siyasi səhvlərə yol verməməli, müasir elmi yenilikləri öz işində göstərməlidir.

NÜMUNƏLƏR

"Elmin fəlsəfəsi" fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. Elmin fələsəfə üzərində sistematik inikası, dövrün sosial-mədəni kontekstində mövcud elmin nailiyyətlərinin nəzərə alınmasını dərk etmək.
FTN 2.Müxtəlif elm sahələrinə aid fəlsəfi terminologiyaların mənasını bilmək.
FTN 3. Elmin fəlsəfəsinin obyektivliyinə təsir edən amillərin təhlilini aparmaq.
FTN 4. Elmi idrakın meyarlarını və səviyyələrini bilmək.

FTN 5. Elmin sosial funksiyalarını bilmək.
FTN 6. Elmin fəlsəfəsində nəzəri və empirik tədqiqatın elmi metodlarını bilmək
"Elmi tədqiqat metodları" fənni üzrə təlim nəticələri (FTN)
FTN 1. Elmi tədqiqatların ümumi metodikasını bilmək.
FTN 2. Elmi işlərin tərtibinə dair yeni qaydalar haqqında məlumatlı olmaq.
FTN 3. Elmi tədqiqat sahəsinə dair mövzunun araşdırılması zamanı müqayisəli təhlillər aparmağı bacarmaq
FTN 4. Elmi tədqiqat probleminin qoyuluşu və onun aktuallığının əsaslandırılması
FTN 5. Elmi tədqiqatda anket və müsahibə metodunun aparılma qaydalarını bacarmaq.
FTN 6. Elmi tədqiqatda nəzəriyyə və hipotezlərin əhəmiyyətini bilmək
"İxtisas yönümlü" seçmə fənlər üzrə təlim nəticələri (FTN)
FTN 1. Fənnin məzmun və mahiyyətini dərindən bilmək.
FTN 2. Fənni nəzəri və təcrübi aspektdən öyrənmək.
FTN 3. Fənnə aid olan mövzularım elmi məzmununu dərk etmək.
FTN 4. Tədris olunan fənnlərin dissertasiya mövzusu ilə əlaqəli olub-olmadığını araşdırmaq və ümumi təhlillər apararaq gələcəkdə dissertasiya işində bu fənlərdən yararlanmaq.
FTN 5. İxtisas sahəsinə uyğun keçirlinə fənlərin metodologiyasını anlamaq
FTN 6. İxtisas yönümlü tədris olunan fənlərdə yeni bilik və bacarıqları təkmilləşdirmək.

Əlavə-2

Fənlərin və Təhsil Proqramının təlim nəticələrinin matrisi

Ali təhsil müəssisəsi aşağıdakı cədvəldən istifadə edərək Doktorantura və dissertantura üzrə Təhsil Proqramının və hər fənn üzrə təlim nəticələrinin əldə olunmasına necə dəstək verdiyini müəyyən etməlidir.

Blokun adı	Fənlərin adı	Proqramın təlim nəticələri					
		PTN 1	PTN 2	PTN 3	PTN 4	PTN 5	PTN 6
Ümumi fənlər	Akademik ingilis dili	X					
	Elmin fəlsəfəsi			X			
	Elmi tədqiqat metodları				X		
İxtisas yönümlü seçmə	-	X	X			X	

fənləri							
Tədqiqat bloku	Dissertasiya mövzusuna dair materialların toplanması						X
	Dissertasiya mövzusuna Dair məqalələrin hazırlanaraq yerli və xarici jurnallarda dərc edilməsi						X

Əlavə-3

Fənnin təlim nəticələrinə nail olmaq məqsədilə istifadə olunan təlim və öyrənmə metodları və qiymətləndirmə üsulları

Fənni tədris edən müəllim fənn üzrə təlim nəticələrinin (bir fənn üzrə ən çoxu 4-5 sayda təlim nəticəsi) və hər təlim nəticəsi üzrə təlim və öyrənmə metodlarını, eləcə də qiymətləndirmə üsullarını müəyyən etməlidir. Bunun üçün aşağıdakı cədvəldən istifadə etməlidir.

Fənnin adı	**Təlim nəticələri**	**Hər bir təlim nəticəsi üçün istifadə olunan təlim və öyrənmə metodları**	**Hər bir təlim nəticəsi üçün istifadə olunan qiymətləndirmə üsulları**